# NAMAZIN MÜXTƏSƏR TƏLİMİ

| | | |
|---|---|---|
|  | **Təkbir:** | Alla:hu Əkbər! |
| **Təkbir** | **Açılış duası:** *(Yalnız birinci rükətdə girişdə)* | Subhə:nəkəlla:hummə va bihəmdik va təbə:rakəsmuk va təa:lə: cədduk va lə: ilə:hə ğayruk! Əu:zu billə:hi minəş-şeyta:nir-raci:m! |
|  | **Fatihə surəsi:** | *Bismillə:hir-Rahmə:nir-Rahi:m!* Əl-həmdu lillə:hi Rabbil-a:ləmi:n, Ər-Rahmə:nir-Rahi:m, Mə:liki yəumiddi:n, İyyəkə nə'abudu va iyyəkə nəstəi:n, İhdinəs-sıra:tal mustəqi:m, Sıra:tal-ləzi:nə ən'amtə aleyhim, Ğayril məğdu:bi aleyhim, valəd'da:~lli:n! Əmin! |
| **Qiyam** | **İxlas surəsi:** *(Birinci və ikinci rükətdə)* | *Bismillə:hir-Rahmə:nir-Rahi:m!* Qul huvalla:hu Əhəd, Alla:hus-Saməd, Ləm yəlid va ləm yu:ləd, Va ləm yəkul-ləhu: kufuvan əhəd. |
|  | **Təkbir:** | Alla:hu Əkbər! |
| | **Rukuda:** | Subhə:nə Rabbiyəl-Azi:m *(1 və ya 3 dəfə)* |
| | **Rukudan qalxanda:** | Səmialla:hu limən həmidəh |
| | **Qiyamda:** | Rabbənə: va ləkəl-həmd |
| **Ruku** | **Təkbir:** | Alla:hu Əkbər! |
|  | **Birinci səcdə:** | Subhə:nə Rabbiyəl-Ə'alə: *(1 və ya 3 dəfə)* |
| | **Təkbir:** | Alla:hu Əkbər! |
| | **Səcdələr arasında:** | Rabbiğfirli: *(1 və ya 3 dəfə)* |
| | **Təkbir:** | Alla:hu Əkbər! |
| | **İkinci Səcdə:** | Subhə:nə Rabbiyəl-Ə'alə: *(1 və ya 3 dəfə)* |
| **Səcdə** | **Təkbir:** | Alla:hu Əkbər! |
|  | **Təşəhhüd:** | Ət-təhiyyə:tu lillə:hi vas-saləva:tu vat-tayyibə:t. Əs-Sələ:mu alən-nəbiyyi va Rahmətulla:hi va Bərakə:tuh. Əs-Sələ:mu aleynə: va alə: ibə:dillə:his-sa:lihi:n. Əşhədu ən lə: ilə:hə illəlla:h. Va əşhədu ənnə Muhəmmədən abduhu va rasu:luh. |
| | **Peyğəmbərə salavat:** | Alla:hummə salli alə: Muhəmmədin va alə: ə:li Muhəmməd kəmə: salleytə alə: İbra:hi:mə va alə: ə:li İbra:hi:m, innəkə həmi:dun məci:d. Alla:hummə bə:rik alə: Muhəmmədin va alə: ə:li Muhəmməd kəmə: bə:raktə alə: İbra:hi:mə va alə: ə:li İbra:hi:m, innəkə həmi:dun məci:d. |
| **Təşəhhüd** | **Salamdan öncə dua:** | Alla:hummə inni: əu:zu bikə min azə:bi cəhənnəm va min azə:bil-qabr va min fitnətil-məhyə: val-məmə:t va min şərri fitnətil-məsi:hid-dəccə:l. |
|  | **Sağa salam:** | Əs-Sələ:mu aleykum va Rahmətulla:h. |
| **Salamlar** | **Sola salam:** | Əs-Sələ:mu aleykum va Rahmətulla:h. |

Birinci rükətin tamamı

İkinci rükətin tamamı

Sonuncu rükətin tamamı

**Qeyd: Transkripsiyalarda olan iki nöqtə (:) işarəsi özündən əvvəlki hərfin uzadılmasını bildirir.**

*Namazla bağlı daha ətraflı:* https://abu-bakr.com/?p=2375
*Namazın qılınma qaydasının VİDEO forması:* https://abu-bakr.com/upload/video/video/namaz_telimi.mp4
*Namazla bağlı ən çox verilən sualların cavabları:* https://abu-bakr.com/?p=35994

**Dəstəmaz.** Dəstəmaz almaq istəyən şəxs, ilk olaraq qəlbində niyyət edir. Sonra "Bismilləh" deyərək əllərini biləklərə qədər yaxalayır. Ağzını və burnunu ovcuna su alaraq yuyur. Sonra üzünü və qollarını dirsəyə qədər (dirsək daxil) yuyur. Başına (əlini isladaraq iki əli ilə başını ön tərəfindən başlayaraq arxaya, sonra əks istiqamətdə) və qulaqlarına (şəhadət barmağını qulaq boşluğuna, baş barmağını isə qulağın arxa tərəfinə qoyaraq) bir dəfə məsh çəkir, ayaqlarını topuqlara qədər yuyur. Sonra bu duanı oxuyur: **"Əşhədu ən lə: ilə:hə illəlla:hu vahdəhu lə: şəri:kə ləh va əşhədu ənnə Muhəmmədən abduhu va rasu:luh".**

Hər əzanı bir dəfə yumaq vacib, iki və üç dəfə yumaq isə sünnədir. Dəstəmaz alarkən əllərin və ayaqların yuyulmasında ilk olaraq sağ tərəfi yumaq sünnədəndir. Həmçinin ümumiyyətlə əzaların yuyulması ardıcıl və fasiləsiz olmalıdır.

**Təyəmmüm.** Təyəmmüm müəyyən zəruri və çətin hallarda: su olmadıqda, xəstələnmə təhlükəsi olduqda və s. zamanlarda edilir. Təyəmmüm almaq üçün "Bismilləh" deyilərək ovuclar torpağa yaxud təbii toza vurulur və üzə sürtülür. Sonra sağ əli sol, sol əli isə sağ əlin üstünə biləyə qədər sürtərək məsh çəkilir. Suya çatdıqda və ya sudan istifadə etməyə imkan tapdıqda təyəmmümün hökmü bitir.

**Dəstəmazı pozan amillər: Cinsiyyət orqanlarından çıxan hər hansı ifrazat; cinsiyyət üzvünə şəhvətlə toxunmaq; dərin yuxu; huşunu itirmək; dəvə əti yemək.** Dəstəmazı pozan amillər təyəmmümü də pozur.

**Qüsl.** Cinsi əlaqə, məni (sperma) axması, nifas (doğuşdan sonra qanaxma) və ya heyzdən (aybaşı) sonra namaz qılmaq üçün qüsl almaq vacibdir. Qüsl almaq üçün birinci qəlbdə niyyət edilir. Sonra "Bismilləh" deyilərək əllər, cinsi orqan və bulaşmış yerlər yuyulur. Daha sonra kamil dəstəmaz alınır, baş və bədən (bədənin hər yerinin islanması şərtilə) yuyulur.

*Dəstəmaz almaq qaydası VİDEO formatda:* http://zikr.az/node/6900
*Təharət (dəstəmaz, qüsl, təyəmmüm və s.) ilə bağlı suallara cavablar:* https://abu-bakr.com/?p=36422

| Azan: | İqamə: |
|---|---|
| **Alla:hu əkbər (4 dəfə).** | **Alla:hu əkbər (2 dəfə).** |
| **Əşhədu ən lə: ilə:hə illəlla:h (2 dəfə).** | **Əşhədu ən lə: ilə:hə illəlla:h (1 dəfə).** |
| **Əşhədu ənnə Muhəmmədən rasu:lulla:h (2 dəfə).** | **Əşhədu ənnə Muhəmmədən rasu:lulla:h (1 dəfə).** |
| **Həyyə aləs-salə:h (2 dəfə).** | **Həyyə aləs-salə:h (1 dəfə).** |
| **Həyyə aləl-fələ:h (2 dəfə).** | **Həyyə aləl-fələ:h (1 dəfə).** |
| **Əs-salə:tu xayrun minən-nəuvm (2 dəfə).** Bu söz yalnız Sübh namazının azanında deyilir. | **Qad qa:mətis-salə:h (2 dəfə).** |
| **Alla:hu əkbər (2 dəfə).** | **Alla:hu əkbər (2 dəfə).** |
| **Lə: ilə:hə illəlla:h (1 dəfə).** | **Lə: ilə:hə illəlla:h (1 dəfə).** |

**Əziz müsəlman! Namaz qılmaq hər bir müsəlmana vacibdir.** Gündəlik 5 vaxt namaz Allahın verdiyi vaxtın cüzi hissəsini aparır. Allah Quranda insanlara əmr edir: **"Namaz qılın…"** (əl-Bəqərə, 110), **"… Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"** (Ğafir, 60). Namaz insanı pis əməllərdən çəkindirir: **"Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir."** (əl-Ənkəbut, 45).

**Hər müsəlman gündə beş vaxt namaz qılmalıdır.** Allah Təala buyurur: **"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək bəlli vaxtlarda namaz qıl və sübh çağı Quran oxu (fəcr namazını da qıl)! Çünki sübh çağı oxunan Quranın şahidləri olur."** (əl-İsra, 78), **"Gündüzün iki başında (əvvəlində və axırında) və gecənin bəzi saatlarında namaz qıl! …"** (Hud, 114), **"… Gün doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə tariflə!"** (Qaf, 39), **"… Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə tariflə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona tariflər de ki, bəlkə razı qalasan."** (Taha, 130), **"Namazları və (günortadan sonrakı) orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun."** (əl-Bəqərə, 238).

**Unutmaq olmaz ki, hər namaz vaxtında qılınmalıdır.** Allah Təala Qurani-Kərimdə buyurur: **"Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir."** (ən-Nisə, 103). **"… sən və səninlə olan insanların bir qismi bəzən gecənin üçdə ikisindən az, bəzən yarısını, bəzən də üçdə birini ibadət üçün durursunuz. Gecə və gündüzü Allah ölçüb müəyyənləşdirir. O, sizin bunları hesablamaqda çətinlik çəkəcəyinizi nəzərə alaraq, tövbələrinizi qəbul etdi."** (əl-Muzzəmmil, 20).

**Hər bir müsəlmana Cümə namazına getmək vacibdir** (qadınlar və uşaqlar müstəsnadır). Dinimizdə Cümə namazının böyük əhəmiyyəti vardır. Allah bu namazı bizə vacib buyurmuşdur: **“Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız.”** (Cumuə, 9-10).

**Mühüm qeydlər.** Qadın ilə kişinin namazında heç bir fərq yoxdur. Sadəcə olaraq qadınlar üz və əllər müstəsna olmaqla bütün bədən üzvlərini örtməlidirlər. Kişilər isə adət edilən normal paltar ilə namaz qıla bilərlər. Namaz qılarkən üzü qibləyə, Kəbə (Məkkə) istiqamətində dayanmaq lazımdır. **Sübh namazı 2, Zöhr namazı 4, Əsr namazı 4, Məğrib namazı 3, İşa namazı isə 4 rükətdir.**

## NAMAZIN TƏRCÜMƏSİ

**(Diqqət! Namazın tərcüməsi onun mənasını anlamanız üçündür, Azərbaycan dilində namaz qılmaq üçün deyil).**

| | |
|---|---|
| **Alla:hu Əkbər!** | Allah ən böyükdür! |
| **Subhə:nəkəlla:humma va bihəmdik va təbə:rakə-smuk va təa:lə: cədduk va lə: ilə:hə ğayruk! Əu:zu billə:hi minəş-şeyta:nir-raci:m!** | Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin ucadır. Səndən başqa haqq məbud yoxdur! Lənətlənmiş şeytandan Allaha sığınıram! |
| **Bismillə:hir-Rahmə:nir-Rahi:m! Əl-həmdu lillə:hi Rabbil-a:ləmi:n, Ər-Rahmə:nir-Rahi:m, Mə:liki yəumiddi:n, İyyəkə nə’abudu va iyyəkə nəstəi:n, İhdinəs-sıra:tal mustəqi:m, Sıra:tal-ləzi:nə ən’amtə aleyhim, Ğayril məğdu:bi aleyhim, valəd’da:~lli:n!** | Mərhəmətli və Rəhmli Allahın adı ilə! Həmd olsun aləmlərin Rəbbi Allaha, Mərhəmətli və Rəhmliyə, Haqq-hesab gününün Hökmdarına! Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) deyil! |
| **Bismillə:hir-Rahmə:nir-Rahi:m! Qul huvalla:hu Əhəd, Alla:hus-Saməd, Ləm yəlid va ləm yu:ləd, Va ləm yəkul-ləhu: kufuvan əhəd.** | Mərhəmətli və Rəhmli Allahın adı ilə! De: “O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur”. |
| **Subhə:nə Rabbiyəl-Azi:m** | Əzəmətli Rəbbim pak və müqəddəsdir! |
| **Səmialla:hu limən həmidəh** | Allah Ona həmd edəni eşitdi! |
| **Rabbənə: va ləkəl-həmd** | Ey Rəbbimiz! Sənə həmd olsun! |
| **Subhə:nə Rabbiyəl-Əalə:** | Ən uca Rəbbim pak və müqəddəsdir! |
| **Rabbiğfirli:** | Rəbbim, məni bağışla! |
| **Ət-təhiyyə:tu lillə:hi vas-saləva:tu vat-tayyibə:t. Əs-Sələ:mu alən-nəbiyyi va Rahmətulla:hi va Bərakə:tuh. Əs-Sələ:mu aleynə: va alə: ibə:dillə:his-sa:lihi:n. Əşhədu ən lə: ilə:hə illəlla:h. Va əşhədu ənnə Muhəmmədən abduhu va rasu:luh.** | Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Peyğəmbərə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (olsun)! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. |
| **Alla:hummə salli alə: Muhəmmədin va alə: ə:li Muhəmməd kəmə: salleytə alə: İbra:hi:mə va alə: ə:li İbra:hi:m, innəkə həmi:dun məci:d. Alla:hummə bə:rik alə: Muhəmmədin va alə: ə:li Muhəmməd kəmə: bə:raktə alə: İbra:hi:mə va alə: ə:li İbra:hi:m, innəkə həmi:dun məci:d.** | Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! |
| **Alla:hummə inni: əu:zu bikə min azə:bi cəhənnəm va min azə:bil-qabr va min fitnətil-məhyə: val-məmə:t va min şərri fitnətil-məsi:hid-dəccə:l.** | Allahım! Cəhənnəm əzabından, Qəbir əzabından, həyatın və ölümün fitnəsindən, məsih dəccalın fitnəsinin şərindən Sənə pənah aparıram! |
| **Əs-Sələ:mu aleykum va Rahmətulla:h.** | Allahın salamı və rəhməti sizin üzərinizə olsun! |

**Möhtərəm müsəlman qardaş və bacı! Namaz və ya İslamın digər əhkamları ilə bağlı suallara aşağıdakı saytların sual-cavab bölmələrindən cavab tapa bilərsiniz:**

http://zikr.az/
http://islamevi.az/
https://abu-bakr.com/

✅ *Yoxladı: Arif Allahyarov*